# ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİNİN ENERJİ TƏNZİMLƏMƏ VƏ MONİTORİNQ DEPARTAMENTİNİN

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – Agentlik) Enerji tənzimləmə və monitorinq departamenti (bundan sonra – Departament) Agentliyin struktur bölməsidir.

1.2. Bu Əsasnamə ilə Departamentin fəaliyyətinin məqsədi və istiqamətləri, o cümlədən vəzifə və hüquqları müəyyən edilir, fəaliyyətinin təşkili ilə bağlı digər münasibətlər tənzimlənir.

1.3. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası energetika nazirinin əmr və sərəncamlarını, Agentliyin Nizamnaməsini, Agentliyin İdarə Heyətinin (bundan sonra – AİH) qərarlarını, AİH sədrinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Agentliyin struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. Departamentin fəaliyyətinin məqsədi elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində (bundan sonra – müvafiq sahə) dövlət nəzarətinin, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə əməl edilməsinə nəzarətin həyata keçirilməsini təmin etməkdir.

2.2. Departament aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.2.1. müvafiq sahədə monitorinq məsələləri üzrə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.2.2. qüvvədə olan qanunvericiliyə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə müvafiq sahədə əməl edilməsinə nəzarəti həyata keçirir;

2.2.3. müvafiq sahədə istehsalçılar, təchizatçılar, ötürücülər (nəqledicilər) və paylayıcılar arasında mübahisələrə, habelə istehlakçıların şikayətlərinə baxılmasında iştirak edir və Agentliyin filialları (bundan sonra – filiallar) tərəfindən müvafiq mübahisələrə və şikayətlərə baxılmasına nəzarət edir;

2.2.4. qanunla nəzərdə tutulmuş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparır.

## 3. Departamentin vəzifələri və hüquqları

3.1. Bu Əsasnamənin 2.2-ci bəndi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Departamentin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ-hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;

3.1.3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada yoxlamalar aparmaq;

3.1.4. müvafiq sahədə istehlakçıların hüquqlarının və qanuni mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması üçün tədbirlərin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.5. Agentliyin səlahiyyətlərinə aid məsələlərə dair müvafiq sahədə qanunvericiliyin tələblərinin pozulması ilə bağlı inzibati xəta əlamətləri aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək;

3.1.6. müvafiq sahədə fəaliyyət göstərən müəssisələrin qərarlarından, hərəkət və ya hərəkətsizliyindən verilmiş şikayətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək, filiallar tərəfindən də həmin şikayətlərə baxılması üzrə statistikanı təhlil etmək, təcrübəni ümumiləşdirmək;

3.1.7. Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin təmin edilməsi tədbirlərinin hazırlanmasında iştirak etmək və həyata keçirilməsini təmin etmək;

3.1.8. monitorinq vasitəsilə müvafiq sahədə qanunvericiliyə, o cümlədən iqtisadi, texniki və təşkilati tələblərə, təlimatlara əməl olunmasına, habelə müəssisələrin texniki şərtlər verməsinə nəzarət etmək;

3.1.9. Agentliyin Nizamnaməsində müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi ilə bağlı müvafiq sahədə icrası məcburi olan göstərişlər vermək;

3.1.10. qanunla müəyyən edilmiş hallarda və qaydada istehlakçılara elektrik, istilik enerjisi və qazın verilməsinin dayandırılması barədə icrası məcburi olan göstərişlər verilməsi üçün tədbirlər görmək;

3.1.11. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər üçün müvafiq sahəyə dair peşəkar tövsiyələrin və rəylərin hazırlanmasında iştirak etmək;

3.1.12. müvafiq sahədə ixtisaslı mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı Departamentin kuratoruna təkliflər vermək və həmin təkliflərin həyata keçirilməsində iştirak etmək;

3.1.13. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görmək;

3.1.14. Departamentin və filialların fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;
3.1.15. Departamentdə və filiallarda kadrların əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;
3.1.16. müvafiq sahədə dövlət nəzarətinin həyata keçirilməsi üçün filialların işini əlaqələndirmək və onların işinin təkmilləşdirilməsi üzrə təkliflər vermək;
3.1.17. filiallarda icra intizamının, o cümlədən yuxarı dövlət orqanları və Agentliyin rəhbərliyi tərəfindən nəzarətə götürülmüş sənədlərin vaxtında və düzgün icrasını təmin etmək;
3.1.18. müvafiq sahədə fəaliyyət göstərən müəssisələrin və onların tabeliyindəki qurumların işçilərinə, habelə istehlakçılara (məişət abonentləri istisna olmaqla), elektrik təsərrüfatlarına cavabdeh şəxslərə və təhlükəsizlik texnikası üzrə mühəndislərə müvafiq sahədə əməyin mühafizəsi üzrə norma və qaydalara dair təlimlər keçmək, onların peşə biliklərini yoxlamaq və yoxlamanın nəticələri barədə təkliflər vermək;
3.1.19. müvafiq sahədə fəaliyyət göstərən müəssisələrin təqdim etdikləri hesabatları təhlil etmək, icrası məcburi olan göstərişlər vermək və (və ya) yerində yoxlama istiqamətində tədbirlər görmək;
3.1.20. filialların fəaliyyətinə dair hesabatların vaxtında təqdim edilməsinə nəzarət etmək, həmin hesabatları təhlil etmək, onların təkmilləşdirilməsi üzrə təkliflər vermək;
3.1.21. bu Əsasnamənin 5.1-ci, 5.3-cü və 5.5-ci bəndlərində nəzərdə tutulmuş digər vəzifələri, habelə bu Əsasnamə ilə üzərinə düşən vəzifələrin icrası məqsədilə qanunvericiliklə qadağan edilməyən hərəkətləri yerinə yetirmək;
3.1.22. Filiallarda kargüzarlıq və arxiv işinin aparılmasına nəzarət etmək;
3.1.23. fəaliyyətinin nəticələri barədə AİH-ə hesabat təqdim etmək;
3.1.24. AİH sədrinin və (və ya) Departamentin kuratoru müəyyən etdiyi digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Departamentin aşağıdakı hüquqları vardır:
3.2.1. müvafiq sahəni tənzimləyən normativ-hüquqi aktların, normativ xarakterli aktların və (və ya) sərəncamverici aktların hazırlanmasına və təkmilləşdirilməsinə dair rəy və təkliflər vermək;
3.2.2. Agentliyin daxili qaydalarının və strukturunun hazırlanmasına və təkmilləşdirilməsinə dair analitik materiallar hazırlamaq və təkliflər təqdim etmək;
3.2.3. bu Əsasnamə ilə üzərinə düşən vəzifələrin icrası məqsədilə məlumatlar (sənədlər) barədə sorğu vermək, məlumatları və sənədləri Agentliyin istənilən struktur bölməsindən və (və ya) vəzifəli şəxsindən almaq;
3.2.4. dövlət qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə məlumatların (sənədlərin) istənilməsi barədə sorğular hazırlamaq və onlardan belə məlumatları (sənədləri) almaq məqsədilə Departamentin kuratoruna müraciət etmək;
3.2.5. Departamentin fəaliyyət istiqamətləri üzrə hesabatlar hazırlamaq, rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq;

3.2.6. müvafiq sahə üzrə konfrans, seminar və digər tədbirlərdə iştirak edilməsi üçün Departamentin kuratoru qarşısında təkliflərlə çıxış etmək;

3.2.7. aidiyyəti beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə, habelə digər qurum və təşkilatlarla əməkdaşlığın qurulması üçün Departamentin kuratoruna təkliflər vermək;

3.2.8. Departamentin və filiaların işçilərinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi ilə bağlı Departamentin kuratoru qarşısında təkliflərlə çıxış etmək;

3.2.9. Departamentin və filialların fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Departamentin kuratoru qarşısında təkliflərlə çıxış etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş, o cümlədən vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 4. Departamentin fəaliyyətinin təşkili

4.1. Departament öz fəaliyyətini onun strukturuna daxil olan sektorlar vasitəsilə həyata keçirir.

4.2. Departament onun direktoru tərəfindən idarə edilir. O, AİH sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur və öz fəaliyyətində Departamentin kuratoruna tabedir.

4.3. Departamentin direktoru:

4.3.1. Departamentin fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir, o cümlədən Departament adından sənədləri imzalayır, Departamentə razılaşdırma üçün daxil olan sənədlərə viza verir;

4.3.2. etibarnamə ilə verilmiş səlahiyyətlər çərçivəsində Agentlik adından sənədləri imzalayır;

4.3.3. Departamentin vəzifələrinə və hüquqlarına uyğun olaraq qərarlar qəbul edir;

4.3.4. Departamentə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir, tabeliyində olan sektorların iş prosesinə cəlb edilməsi məsələsinə baxır, işçilərin əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

4.3.5. Departamentin əsas fəaliyyət göstəriciləri üzrə hədəflərini əsas götürməklə, habelə səmərəlilik göstəricilərini nəzərə almaqla, sektorların və (və ya) filialların işçilərinin fəaliyyətinin nəticələrinə uyğun olaraq onları qiymətləndirir;

4.3.6. səlahiyyətləri daxilində rəsmi yazışma aparır, Departamentə daxil olan müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması işini təşkil edir, daxili sənədləri, Departament adından göndərilən sənədləri, habelə Agentliyin müvafiq əmrləri və ya etibarnamələri ilə imzalamaq səlahiyyəti verilmiş digər sənədləri imzalayır, təsdiq edir, müvafiq möhürdən istifadə edir;

4.3.7. Sektorların və (və ya) filialların işçiləri barədə təşəkkür elan edir və digər həvəsləndirmə tədbirlərinin görülməsi üçün Departamentin kuratoruna təqdimatlar verir;

4.3.8. Sektorların və (və ya) filialların işçiləri barədə intizam tənbehi tədbirlərinin görülməsi üçün Departamentin kuratoruna təqdimatlar verir;

4.3.9. Departament daxilində işçi qrupları yaradır, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına nəzarət edir və buna görə bilavasitə cavabdehdir;
4.3.10. Departamentdə kargüzarlıq işinin aparılmasını təmin edir;
4.3.11. Departamentin kuratoruna hesabat verir;
4.3.12. əmək müqaviləsi ilə nəzərdə tutulmuş digər vəzifə və hüquqları həyata keçirir.

4.4. Departamentin tabeliyində aşağıdakı sektorlar fəaliyyət göstərir:
4.4.1. Enerji monitorinqi sektoru;
4.4.2. Qaz monitorinqi sektoru;
4.4.3. Müayinə və texniki xidmətin monitorinqi sektoru.

4.5. Departament direktorunun müavini – Enerji monitorinqi sektorunun müdiri:
4.5.1. Departamentin Enerji monitorinqi sektoruna rəhbərlik edir;
4.5.2. Departamentin direktoruna tabedir və ona hesabat verir;
4.5.3. Departamentin direktorunun tapşırıqlarını icra edir;
4.5.4. Departamentin direktoru olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

4.6. Departament direktorunun müavini – Qaz monitorinqi sektorunun müdiri:
4.6.1. Departamentin Qaz monitorinqi sektoruna rəhbərlik edir;
4.6.2. Departamentin direktoruna tabedir və ona hesabat verir;
4.6.3. Departamentin direktorunun tapşırıqlarını icra edir;
4.6.4. Departamentin direktoru olmadıqda onun səlahiyyətlərini həyata keçirir.

4.7. Sektorun müdiri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə tabeliyində olan işçilər üzrə iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla, hər bir işçi üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, verilən tapşırıqların uğurlu icrası üçün lazımi şəraiti yaradır.

4.8. Departament direktorunun müavini və sektor müdirləri AİH sədri tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

4.9. Departamentin direktorunun müəyyən səbəblərdən öz səlahiyyətlərini icra etməsi mümkün olmadıqda, Departamentin direktorunun səlahiyyətlərini Enerji monitorinqi sektorunun müdiri icra edir.

4.10. Enerji monitorinqi sektorunun müdirinin müəyyən səbəblərdən Departamentin direktorunun səlahiyyətlərini icra etməsi mümkün olmadıqda, Departamentin direktorunun səlahiyyətlərini Qaz monitorinqi sektorunun müdiri icra edir.

## 5. Departamentin sektorlarının vəzifələri və hüquqları

5.1. Enerji monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:
5.1.1. filiallar tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, 200 kVt-dan yuxarı elektrik qurğularının istismarına buraxılış aktının verilməsinə, habelə buna münasibətdə həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş icazə verən orqanın səlahiyyətlərinin həyata keçirilməsinə nəzarət etmək;
5.1.2. elektrik enerjisi təchizatı şəbəkələrində, habelə enerji verilməsində qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qeydiyyatını aparmaq, onların baş vermə səbəblərinin araşdırılmasında iştirak etmək, eləcə də belə

hadisələrin və halların qarşısının alınması üçün təşkilati-texniki tədbirlər hazırlamaq və onların yerinə yetirilməsinə nəzarət etmək;

5.1.3. enerji istehsalı və təchizatı müəssisələrində elektrik və istilik enerjisinin istehsalı, ötürülməsi və paylanması proseslərinin idarə edilməsinə, mərkəzi və yerli idarəetmə səviyyəsində dispetçer xidmətlərinin işinin mövcud qaydalara, təlimatlara və digər hüquqi aktların tələblərinə uyğun təşkil olunmasına nəzarət etmək;

5.1.4. enerji sistemində elektrik enerjisi və güc çatışmazlığı ilə əlaqədar enerji istehsalı və təchizatı müəssisələrinin tətbiq etdikləri məhdudiyyət və birbaşa açılma qrafiklərinin düzgün tərtib olunmasına və yerinə yetirilməsinə nəzarət etmək;

5.1.5. dövlət müəssisələrində elektrik və istilik enerjisindən istifadə üzrə istehlak limitlərinə əməl olunmasına nəzarət etmək;

5.1.6. müvafiq sahədə baş vermiş enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatına təhlükə yaradan qəzaların araşdırılmasında iştirak etmək;

5.1.7. istehlak olunan elektrik və istilik enerjisinə görə hesablaşmaların müvafiq sayğaclar vasitəsilə aparılmasına nəzarət etmək;

5.1.8. enerji sahəsində istehsalçılar, təchizatçılar, ötürücülər və paylayıcılar arasında mübahisələrə, habelə istehlakçıların şikayətlərinə baxılmasında iştirak etmək;

5.1.9. “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası”nın elektrik və istilik enerjisi sahələrinə aid hissəsinin tələblərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

5.1.10. “Elektrik qurğularının texniki istismar Qaydaları”nın tələblərinə riayət edilməsinə nəzarət etmək;

5.1.11. elektrik və istilik enerjisi sahələrində filialların fəaliyyətinə nəzarət etmək;

5.1.12. elektrik və istilik enerjisi resurslarından səmərəli və qənaətlə istifadə olunması, elektrik və istilik enerjisinə tələbatın tam ödənilməsi məqsədilə təşkilati-texniki tədbirlərin həyata keçirilməsini təmin etmək;

5.1.13. enerji monitorinqi məsələləri üzrə hesabatlar hazırlamaq;

5.1.14. enerji monitorinqi ilə bağlı Departamentin direktorunun göstərişlərini icra etmək.

5.2. Enerji monitorinqi sektorunun hüquqları aşağıdakılardır:

5.2.1. müvafiq sahə üzrə dövlət qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğular vermək və onlardan belə məlumatları (sənədləri) almaq məqsədilə Departamentin direktoruna müraciət etmək;

5.2.2. müvafiq sahə üzrə konfrans, seminar və digər tədbirlərdə iştirak edilməsi üçün Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna təkliflər vermək;

5.2.3. aidiyyəti beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə, habelə digər qurum və təşkilatlarla əməkdaşlığın qurulması ilə bağlı Departamentin direktoruna təkliflər vermək;

5.2.4. elektrik və istilik enerjisi təchizatı ilə bağlı filiallardan məlumatları (sənədləri) tələb etmək və almaq;

5.2.5. Sektorun işçilərinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi, habelə sektorun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna təkliflər vermək.

5.3. Qaz monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:

5.3.1. filiallar tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, sənaye qaz qurğusunun istismarına icazənin verilməsinə, habelə buna münasibətdə həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş icazə verən orqanın səlahiyyətlərinin həyata keçirilməsinə nəzarət etmək;

5.3.2. qaz təchizatı şəbəkələrində, habelə qaz verilməsində qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qeydiyyatını aparmaq, onların baş vermə səbəblərinin araşdırılmasında iştirak etmək, eləcə də belə hadisələrin və halların qarşısının alınması üçün təşkilati-texniki tədbirlər hazırlamaq və onların yerinə yetirilməsinə nəzarət etmək;

5.3.3. dövlət müəssisələrində qazdan istifadə üzrə istehlak limitlərinə əməl olunmasına nəzarət etmək;

5.3.4. Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismara qəbulunda və qaz şəbəkəsinə qoşulmasında iştirak etmək, habelə sənaye qaz qurğusu olan istehlakçıların qaz sayğaclarının dəyişdirilməsində iştirak etmək;

5.3.5. istehlak olunan təbii qaza görə hesablaşmaların müvafiq sayğaclar vasitəsilə aparılmasına nəzarət etmək;

5.3.6. qaz resurslarından səmərəli və qənaətlə istifadə olunması, qaza tələbatın tam ödənilməsi məqsədilə təşkilati-texniki tədbirlərin həyata keçirilməsini təmin etmək;

5.3.7. "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın qaz təchizatı sahəsinə aid hissəsinin tələblərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

5.3.8. qaz sahəsində istehsalçılar, təchizatçılar, nəqledicilər və paylayıcılar arasında mübahisələrə, habelə istehlakçıların şikayətlərinə baxılmasında iştirak etmək;

5.3.9. qaz sahəsində filialların fəaliyyətinə nəzarət etmək;

5.3.10. qaz monitorinqi məsələləri üzrə hesabatlar hazırlamaq;

5.3.11. qaz monitorinqi ilə bağlı Departamentin direktorunun göstərişlərini icra etmək.

5.4. Qaz monitorinqi sektorunun hüquqları aşağıdakılardır:

5.4.1. müvafiq sahə üzrə dövlət qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğular vermək və onlardan belə məlumatları (sənədləri) almaq məqsədilə Departamentin direktoruna müraciət etmək;

5.4.2. müvafiq sahə üzrə konfrans, seminar və digər tədbirlərdə iştirak edilməsi üçün Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna təkliflər vermək;

5.4.3. aidiyyəti beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə, habelə digər qurum və təşkilatlarla əməkdaşlığın qurulması ilə bağlı Departamentin direktoruna təkliflər vermək;

5.4.4. qaz təchizatı ilə bağlı filiallardan məlumatları (sənədləri) tələb etmək və almaq;

5.4.5. Sektorun işçilərinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi, sektorun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna təkliflər vermək.

5.5. Müayinə və texniki xidmətin monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:

5.5.1. müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilmiş məlumatlar əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada qaz qurğularının etibarlı istismarı sahəsi üzrə monitorinq keçirmək;

5.5.2. ixtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsinə, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılmasına və onların fəaliyyətinə nəzarət etmək;

5.5.3. müayinə və texniki xidmətlə bağlı qanunla müəyyən edilmiş tələblərə riayət edilmədiyini aşkar etdikdə icrası məcburi olan göstərişlər vermək;

5.5.4. müayinə və texniki xidmət məsələlərinə dair istehlakçıların şikayətlərinə baxılmasında iştirak etmək;

5.5.5. müayinə və texniki xidmət sahəsi üzrə filialların fəaliyyətinə nəzarət etmək;

5.5.6. müvafiq sahədə müayinə və texniki xidmətin monitorinqi məsələləri üzrə hesabatlar hazırlamaq;

5.5.7. müayinə və texniki xidmətin monitorinqi ilə bağlı Departamentin direktorunun göstərişlərini icra etmək.

5.6. Müayinə və texniki xidmətin monitorinqi sektorunun hüquqları aşağıdakılardır:

5.6.1. müvafiq sahə üzrə dövlət qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğular vermək və onlardan belə məlumatları (sənədləri) almaq məqsədilə Departamentin direktoruna müraciət etmək;

5.6.2. müvafiq sahə üzrə konfrans, seminar və digər tədbirlərdə iştirak edilməsi üçün Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna müraciət etmək;

5.6.3. aidiyyəti beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə, habelə digər qurum və təşkilatlarla əməkdaşlığın qurulması ilə bağlı Departamentin direktoruna təkliflər vermək;

5.6.4. müayinə və texniki xidmət sahəsi ilə bağlı filiallardan məlumatları (sənədləri) tələb etmək və almaq;

5.6.5. Sektorun işçilərinin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi, sektorun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Departamentin kuratoru qarşısında məsələ qaldırılması üçün Departamentin direktoruna təkliflər vermək.